## “Xalq qəzeti”: yekunlar, hədəflər

# Azərbaycan daha böyük uğurlara doğru

*2023-cü ilə ötən ilin reallıqları ilə müqayisəli baxış*

**2023-cü ilin ilk həftəsində, ötən ilə qiymət verərək, ölkəmiz adına vacib olan bir sıra məqamlar üzərində dayanmağa qərar verdik. Bəri başdan bildirək ki, 2022-ci il ölkəmiz üçün uğurlu oldu. Bu baxımdan, bir sıra məqamları nəzərdən keçirmək, bəzi hadisələri yada salmaq mümkündür. Əlbəttə, qəzet materialında onların hamısı barədə söz açmaq mümkün deyil və buna lüzum görmürük. Çalışacağıq ki, bəzi vacib məqamları vurğulamaqla, həm ötən ilə nəzər salaq, həm də ilk günlərini yaşadığımız 2023-cü il üçün prioritetləri müəyyənləşdirək.**

(ardı 4-cü səhifədə)





# Azərbaycan daha böyük uğurlara doğru

(əvvəli 1-ci səhifədə)

İqtisadi nöqteyi-nəzərdən yanaşsaq, Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti ilə 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının inşasına dair sənəddən, Avropa Komissiyası ilə əldə edilmiş razılığa əsasən Avropaya qaz nəqlini 2 dəfəyədək artırmağımızdan, Birləşmiş Ərəb Əmirliyinin “Masdar” şirkəti ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının inşasına dair sazişdən, Zəngilan Beynəlxalq Hava Limanının açılması ilə Zəngəzur dəhlizi üzrə mühüm hava nəqliyyatı infrastrukturunun formalaşdırılmasından tutmuş, “Böyük Qayıdışa dair I Dövlət Proqramını”nın qəbulunadək bir sıra məsələləri ətraflı şəkildə yada sala bilərik. Burada müxtəlif statistik göstəricilər üzərində də dayanmaq mümkündür. Amma buna da ehtiyac duymuruq.

Yalnız onu deyək ki, yola saldığımız il Azərbaycanın dövlət büdcəsi indiyədək görünməmiş həddə – 30 milyard 720,7 milyon civarında müəyyənləşdi ki, bu rəqəmin özü 2023-cü ilin ölkəmiz üçün zəngin il olacağını söyləməyə, son dərəcə, ciddi əsaslar verməkdədir. Təbii, gələcək uğurlarımızı da proqnozlaşdırmaq mümkündür. Çünki ölkəmiz yeni ili kifayət qədər sabit və möhkəm makroiqtisadi vəziyyətlə, bunun üzərində artımı ciddi şəkildə dəstəkləməklə və onu daha da genişləndirə bilmək imkanları ilə qarşılayıb.

* * *

2022-ci ildə ölkəmizin siyasi, iqtisadi və hərbi qüdrətinin daha da artdığını gördük. Ümumən, elə bir sahə olmadı ki, həmin istiqamətdə tərəqqi və inkişafın əldə olunduğu nəzərə çarpmasın. Ən əsası isə ili major notlarla başa vurduq. BMT müstəvisində müstəsna qələbə qazandıq. Söhbət ermənipərəst mövqe tutan Fransanın Azərbaycana qarşı bu mötəbər qurumun Təhlükəsizlik Şurasına çıxarmaq istədiyi qətnamədən gedir. O qətnamədən ki, orada ölkəmiz gözdən salınır, Laçın–Xankəndi yolunda azərbaycanlı fəalların və qeyri-hökümət təşkilatları nümayəndələrinin bu gün da davam edən aksiyası nəticəsində yaranmış durum humanitar fəlakət kimi qələmə verilir və mövcud müstəvidə beynəlxalq təzyiq mexanizmlərinin işə salınması nəzərdə tutulurdu. Son anda Ermənistan tərəfindən iş aparan Paris qətnaməni geri götürdü. Bu, təkcə Fransa deyil, ümumilikdə, dünya erməniliyi üzərində qazandığımız növbəti parlaq qələbə idi. Elə bir qələbə ki, müasir tariximizdə özünə əbədi yer tutacağına şübhə yoxdur.

Azərbaycanlı fəalların aksiyasından söz düşmüşkən, o da ötən ilə damğasını vurdu. Qarabağda ekoloji terrora son qoyulması tələbi ilə keçirilməkdə olan bu aksiya 44 günlük müharibədən sonra Azərbaycanın Ermənistanın məkrli niyyətlərinə qarşı reallaşdırdığı, belə demək mümkünsə, heyrətamiz yumşaq güc nümunəsidir. Elə bir nümunə ki, dünyanın diqqətini Azərbaycana, Qarabağ həqiqətlərinə yönəltdi, haqlı mövqeyimizi bir daha ortaya qoydu. Dünya erməniliyi üzərindəki növbəti diplomatik qələbənin əsası da elə məhz bu aksiyadan qaynaqlandı. Heç şübhəsiz, məqsədimizə çatacağıq. Bu, həm də, əbədi və əzəli Azərbaycan torpağı olan Qarabağdakı separatçılığa son qoyacaqdır. 2023-cü ildən Azərbaycan xalqının ən böyük gözləntisi, məhz, budur.

Biz sülhsevər xalqıq. Ona görə də 2023-cü ildə də mövcud istiqamətdəki səylərimizi davam etdirməliyik. Söhbət Ermənistanla bağlanacaq sülh müqaviləsindən gedir. 2022-ci ildə imzalanması nəzərdə tutulan, lakin gerçəkləşməsi müşkülə çevrilmiş prosesdən.

Ermənistan sülhdən yayındı və aparılmış danışıqları vaxt udmaq, yeni reallıqlar formalaşdırmaq üçün güc toplamaq naminə istifadə etdi. Əlbəttə, istəyinə nail ola bilmədi. Ötən ilin sentyabrın 13-14-də dövlət sərhədində yaşanmış hərbi insidentin nəticələri göstərdi ki, Ermənistan siyasi rəhbərliyinin və revanşist dairələrinin ölkəmizə qarşı güc göstərmək səyləri onlar üçün acınacaqlı sonluqlar vəd edir. Bu qüvvələr həmin tarixdən sonra da dinc dayanmadılar və özlərinin məkrli planlarını, avantürist baxışlarını danışıqlar masasına gətirməyə səy göstərdilər.

Bir daha gördük ki, Ermənistan sülh istəmir. Sülh istəmirsə, deməli, sülhə məcburetmə olmalıdır. Bu isə yalnız ona görə deyil ki, sülh şəraitində yaşamaq istəməyən bir ölkənin bizimlə sülh müqaviləsi bağlamasında israrlıyıq. Əvvəla, çalışırıq ki, Azərbaycana qarşı hər hansı xarici təhdid olmasın. İkincisi, istəyirik ki, ölkəmizin daxilindəki separatçılıq meyilləri tamamilə sıradan çıxsın. Üçüncüsü isə məqsədimiz, ümumən, Cənubi Qafqaz siyasi akvatoriyasında sülh mühiti yaratmaqdır. Çünki bu bölgədə sülhün qarantı, regionun hakim qüvvəsi bizik. Bizimlə hesablaşma mütləqdir!

Bizimlə həm də ona görə hesablaşılmalıdır ki, Cənubi Qafqaz regionu baxımından qlobal əhəmiyyət daşıyan mühüm perspektivlər var. Onların birini artıq diqqətə çatdırdıq – Zəngəzur dəhlizi. Bu, elə bir layihədir ki, bütövlükdə dünya siyasətinə və iqtisadiyyatına müstəsna təsir göstərəcək. Dünyanın axarını dəyişəcək. Buna görə 2023-cü il üçün başlıca prioritetlərimizdən biri məhz Zəngəzur dəhlizidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən il iyunun 16-da keçirilmiş “Qlobal dünya nizamına təhdidlər” mövzulu IX Qlobal Bakı Forumunun açılışında çıxış edərkən bildirdiyi kimi, Zəngəzur dəhlizi açılmasa, sülhdən danışmaq çox çətin olacaq, Azərbaycanın Ermənistanla normal qonşuluğa yönəlmiş səyləri boşa çıxacaq. Dövlətimizin başçısı həmin toplantıda, eyni zamanda, bunları da bildirmişdi: “Zəngəzur dəhlizinin açılması ilə bağlı ən tez qərar regionda gələcək sülhün fundamental elementlərindən biridir. Əgər bizə bu gediş-gəliş verilməsə, sülhdən danışmaq çox çətin olacaq və Azərbaycanın Ermənistanla normal birgəyaşayış, normal qonşuluğa yönəlmiş bütün səyləri boşa çıxacaq. Azərbaycanın bunu tələb etmək hüququ var. Ermənistan hökuməti müvafiq bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkən ölkə kimi bizim tələb etməyə hüquqi və mənəvi haqqımız var”

* * *

Bəli, Azərbaycan haqqı olanı istəyir. Azərbaycanın haqqı isə yalnız Zəngəzur dəhlizi deyil. Bu dəhliz böyük haqqımız uğrundakı mübarizənin yalnız bir, ancaq vacib elementidir. Daha böyük haqqımız var. Ötən il onların səslənlənməsi baxımından da əlamətdar oldu.

“Bu il başa çatır. İl ərzində bir çox önəmli hadisələr baş vermişdir. Biz Azərbaycan – Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir. Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 24-də – öz doğum günündə Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə səsləndirib.

Fundamental mahiyyət daşıyan, konseptual baxışların ortaya qoyulduğu bu çıxış, dövlətimizin Qərbi Azərbaycan davasının hədəflərinin nəinki sadalanmasıydı, eyni zamanda, bölgəyə qayıdışla bağlı mükəmməl yol xəritəsi, məfkurə xətti idi. Cənab İlham Əliyev tarixi faktlarla XX yüzillikdə üzləşdiyimiz faciələrin, torpaq, doğma yurd, el-oba itkisinin acısını, bir növ, dindirdi. Prezident yaşanmış acıların və məhrumiyyətlərin qan yaddaşımıza əbədi yazılmasının vacibliyini vurğuladı, tarixdə yaşanmışlardan dərs çıxarılmasının zəruriliyini əsaslandırdı. Dövlətimizin başçısı müstəqil Azərbaycanın inkişafının, gündən-günə artan qüdrətinin Qarabağa sahibliyimiz reallığını doğurduğu kimi, Zəngəzura sahiblik üçün də körpü açdığını bildirdi. Bu mənada, Göyçə gölünü binoklsuz görmək, həm də, Zəngəzurun Azərbaycana məxsusluğu perspektivini görməkdir. Prezident məsələyə özünəməxsus şəkildə yanaşır: “Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış konsepsiyası olmalıdır”.

Bəli, hədəfimiz Qərbi Azərbaycandır! Hədəfimiz daha böyük olmaqdır! Böyük olmaq, dövrün, zamanın tələbidir. Həm də ona görə ki, tarix Azərbaycan türkünün qismətinə böyük lideri – cənab İlham Əliyevi, yəni, böyük olmaq şansını çıxarıb. Xalqımız şansdan maksimum bəhrələnməlidir. Hesab edirik ki, 2023-cü il Prezident İlham Əliyevin haqqında söz açdığı Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının fundamental əsaslarla işlənilməsi, dövlətimizin başçısının çıxışında səsləndirdiyi fəaliyyət miqyasının əsas götürülərək, əməli tədbirlərin gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşımalıdır. Liderimizin bildirdiyi kimi, mövcud istiqamətdə vaxt itirməməliyik və görəcəyimiz işlərin fayda verəcəyinə inanmalıyıq: “Ona görə bu gün burada sizinlə bərabər 24 dekabr gününü qeyd edərkən mən bir daha demək istəyirəm ki, biz də, qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməliyik. İnanmalıyıq və eyni zamanda, addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik. Gün gələcək, biz Qərbi Azərbaycanda da belə gözəl məclis keçirəcəyik və bu günü xatırlayacağıq”.

* * *

Əlbəttə, biz keçmişimizi unutmamalıyıq. 2022-ci il tarixdə baş verənləri xatırlamaq, yada salmaq baxımından müstəsna əhəmiyyətli il oldu. Müstəsnalıq cənab İlham Əliyevin baxışlarındadır. Əsl liderə, tarixi şəxsiyyətə xas baxışlarında. 2003-cü ildən indiyədək biz onun fikir və düşüncələrinin miqyasının böyüklüyünü görmüş, real iş müstəvisində hiss etmişik. 2022-ci ildə isə Prezidentin əsl Azərbaycan sevdalısı obrazındakı təntənənin şahidi olmuşduq. Bu təntənənin adı bütöv Azərbaycan idi.

Əgər İrəvanın itirilməsi Zəngəzurun və Qarabağın itirilməsi kimi milli faciələrimizi doğurmuşdusa, faciə tariximiz 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələrindən qaynaqlanır. O müqavilələr ki, Azərbaycanın şimalını cənubundan ayrı salmışdı. Bir xalqın iki hissəyə bölünməsi reallığını doğurmuşdu.

Lakin qüdrətli və güclü Azərbaycan bu reallığa meydan oxumaq ruhundadır. Buna görə Prezident İlham Əliyev oktyabrın 21-də Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyevi qəbul edərkən bildirmişdi ki, ölkəmiz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlılara kömək etmək üçün əlindən gələni edəcək. Cənab İlham Əliyev noyabrın 25-də Bakıda ADA Universitetində keçirilən “Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda beynəlxalq konfransdakı çıxışında məsələyə bir qədər təfsilatı ilə aydınlıq gətirdi. Dövlətimizin başçısının fikirləri, eyni zamanda, İrandan Azərbaycana münasibətdə səslənmiş təxribatçı, ölkəmizin dövlət suverenliyini təhdid edən düşüncələrə əsl cavab mahiyyəti də daşımışdı: “Biz hər zaman istənilən anti-Azərbaycan bəyanatına və hərəkətinə cavab vermişik və verəcəyik. Bu səbəbdən, biz İran ilə sərhəddə hərbi təlimlər keçirməli olduq ki, onlardan qorxmadığımızı nümayiş etdirək. Biz həyat tərzimizin, Azərbaycanın dünyəvi inkişaf vektorunun və azərbaycanlıların, o cümlədən, İranda yaşayan azərbaycanlıların müdafiəsi üçün əlimizdən gələni edəcəyik. Onlar xalqımızın bir hissəsidir”.

Bəli, Cənubi Azərbaycandakı soydaşlarımız xalqımızın bir hissəsidir. Hesab edirik ki, 2023-cü il bunun təsdiqinin daha dolğun nümunələrlə zənginləşdirilməsi baxımından mühüm önəm daşıyan il kimi yadda qalacaqdır. Həm də ona görə ki, ortada dil faktoru var. İranın fars şovinizmi xalqımızın dilinə təcavüz yolu tutmaqdadır. Dövlətimiz İran məktəblərində Azərbaycan dilində tədris məsələsini ona görə qaldırır ki, əks-təqdirdə, bu ölkədə ana dilində danışan azərbaycanlılar dilin ədəbi komponentini itirə bilərlər. Bu isə Azərbaycan dilinin yalnız məişət səviyyəsi ilə məhdudlaşmasına gətirər. Təbii, biz buna yol verməməliyik və bu, heç də İranın daxili işlərinə qarışmaq deyildir. Bu, haqqın müdafiəsidir. İranın haqsızlığı ölkədə aylardan bəri davam edən kütləvi etirazlardan da aşkar görünür.

* * *

Müasir Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Artıq düşüncələrdə qəlibləşmiş, daha doğrusu, tarixiləşmiş bu fikrə diqqət yetirərkən, gözlərimiz önündə ölkəmizin müstəqillik illərində əldə etdiyi misilsiz nailiyyətlər dayanır. Bu fikir, həmçinin Vətənimizin parlaq gələcəyinin təminatının rəhni kimi də çıxış etməkdədir.

Prezident İlham Əliyev ümummilli liderin miras qoyduğu dövlətçilik məfkurəsinə dərin sadiqlik nümayiş etdirərək, Azərbaycanı qələbədən-qələbəyə aparmaqdadır. 2022-ci ildə bunun parlaq nümunələrini gördük. Biz Qarabağın və digər torpaqlarımızın azadlığına qovuşması ilə Heydər Əliyev şəxsiyyətinin siyasət meydanındakı yenilməzliyinin də şahidi olmuşduq.

Ulu öndər Qarabağın düşmən tapdağından qurtulacağına inamın özü idi. O, Qarabağ naminə barışmazlığın, torpağımızın bir qarışının belə düşmənə verilməməsinin ən böyük təbliğatçısı idi. Elə buna görə cənab İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa işğaldan azad olunanda, böyük öndərin məzarını ziyarət etmiş, xalqa müraciətində ata vəsiyyətini yerinə yetirdiyi üçün özünü xoşbəxt saydığını bildirmişdi.

Ata vəsiyyətini rəhbər tutmanın örnəyi sayılan Prezident İlham Əliyev sentyabrın 29-da Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda bildirilir ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə, məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Sənəddə, eyni zamanda, vurğulanır ki, dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan – Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Artıq Azərbaycan Prezidenti tərəfindən “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” da təsdiqlənib. 18 bənddən ibarət olan planda yer alan tədbirlərin reallaşdırılması, yalnız, dövlət sənədindən irəli gələn işlərin görülməsi anlamı daşımır. Bu vəzifələr, həm də, ulu öndərin ruhuna mənəvi ehtiramı aşılayır.

Bəli, biz xoşbəxt xalqıq ki, Heydər Əliyev kimi dühamız olub. Biz xoşbəxt xalqıq ki, Heydər Əliyev yolu ilə gedən liderə sahibik. Bu, alternativsiz yoldur! Bu, böyüklük yoludur! Bu yol Vətənimizin uca zirvələrə doğru əzminin və iradəsinin Zəfər anlamıdır, Qələbə fəlsəfəsidir! Ulu öndərin ruhuna dərin ehtiram, Azərbaycan dövlətçiliyinin varlıq düsturudur. Elə buna görə də ilk günlərini yaşadığımız 2023-cü il xalqımız üçün, həm də, qədirbilənlik ilidir.

Uca Tanrı Azərbaycan xalqını qorusun, dövlətimizin məqamını daim yüksək eləsin!

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 6 yanvar.- S.1;4.